# Mərdəkan Mədəniyyət Sarayı

Mərdəkan Mədəniyyət Sarayı respublikamızdakı mədəni-maarif müəssisələri içərisində öz fəaliyyəti ilə seçilir. Fəxrlə demək olar ki, saray təkcə Xəzər rayonunun deyil, eyni zamanda respublikamızın və bəzi xarici ölkələrin mədəni-kütləvi tədbirlərində də uğurla iştirak edir. Mədəniyyət Sarayı hazırda yeni özfəaliyyət kollektivləri, dərnəklər, pullu xidmət sahələrini genişləndirməklə əhalini, ələlxüsus gəncləri və uşaqları buraya cəlb edir.

Sarayın direktoru, rejissor, təcrübəli mədəniyyət işçisi Vüqar Ağayevlə söhbətimizdə bildirdi ki, Mədəniyyət Sarayı 1961-ci ildən fəaliyyət göstərir. Uzun müddət fəaliyyət göstərən saray yararsız hala düşmüşdü. Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə ARDNŞ-in maliyyə vəsaiti hesabına müasir standartlara uyğun yenidən qurulmuş və istifadəyə verilmişdir. 2007-ci il iyunun 14-də Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva yenidən qurulmuş Mərdəkan Mədəniyyət Sarayının açılışında iştirak etmişdir. Ümumi sahəsi 4641 kvadratmetr olan sarayda 374 nəfərlik böyük salon və 150 nəfərlik kiçik salon, mühazirə və rəqs salonları vardır. Böyük salonun səhnəsində müasir videomonitor, işıq sistemləri quraşdırılmışdır. Bina mərkəzləşdirilmiş kondisioner, siqnalizasiya və yanğından mühafizə sistemləri ilə təchiz edilmişdir. Vüqar müəllim onu da qeyd etdi ki, yaradılmış bu şəraitin və Bakı şəhər Mədəniyyət və Turizm İdarəsinin rəisi Əlikram Əliyevin, rayon İH-nin rəhbərliyinin diqqətinin nəticəsidir ki, sarayda yeni dərnəklər, özfəaliyyət kollektivləri, pullu xidmət sahələri genişləndirilir. İndi burada dram, rəqs, tar dərnəkləri, pullu kurslar, "Kam-kam" uşaq teatrı, Rəhman Əlizadə adına teatr studiyası və sair yaradıcılıq kollektivləri fəaliyyət göstərir. Elə bunun nəticəsidir ki, 2014-cü ildə teatr festivallarında teatr studiyası I yerə layiq görülmüşdür.



Onu da qeyd etmək lazımdır ki, Bakı şəhəri üzrə keçirilən ŞHK yarışlarında Xəzər rayonu I yeri tutmuşdur.

Ümumrespublika tədbirlərində də sarayın kollektivi fəal iştirak edir. Məsələn, yeni il şənlikləri, Gənclər Günü, Beynəlxalq Qadınlar Günü, Beynəlxalq Gülüş Günü, Şuşanın, Laçının, ümumilikdə Qarabağın işğalı günləri, Qurtuluş Günü, Müstəqillik Günü və sair tədbirlər bu qəbildəndir.

Ümumilikdə keçən il sarayda 28 tədbir keçirilmişdir ki, bu tədbirlərdə 3646 nəfər iştirak etmişdir.

Cari ildə də Sarayın nailiyyətləri uğurludur. Bir çox tədbirlər həyata keçirilmişdir. Heydər Əliyev parkında keçirilən kütləvi tədbirlər, Qurtuluş Gününə həsr olunmuş "Çiçəklənən Azərbaycan" adlı rəsm müsabiqəsi bu qəbildəndir. Ümumiyyətlə, 2015-ci ilin birinci yarısında 16 tədbir keçirilmişdir ki, bu tədbirlərdə də 2676 nəfər iştirak etmişdir.

**Zabit CAVADOV,**
**"Respublika".**




